## *TARİX, ANTROPOLOGİYA VƏ SİYASİ ELMLƏR*

**UOT:94.(479.24).**

# XII –XIII ƏSRLƏRDƏ AZƏRBAYCAN FEDODAL DÖVLƏTLƏRİNDƏ HƏRB İŞİNİN TƏŞKİLİ TARİXİNDƏN

***t.ü.f.d.Allahverdiyeva Gültəkin Afət qızı***
***Gəncə Dövlət Universiteti***
***gultekin-allahverdiyeva@mail.ru***

**Xülasə:** *XII-XIII əsrlərdə Azərbaycanda mövcud olmuş feodal dövlətlərin- Atabəylərin (Eldənizlər), Şirvanşahların və Elxanilərin (Hülakilər)siyası-iqtisadi vəziyyəti,ordu və hərbi quruculuq işlərinin tarixi hərtərəfli şəkildə öyrənilməsinə baxmayaraq, bu dövlətlərdə hərb işinin təşkili məsələləri tarixşünaslığımızda az araşdırılmışdır.Bu istiqamətdə aparılan tədqiqatlar sistematik şəkildə aparılmamışdır,tədqiqatlar əsasən hərb işinin təşkilinin bir sıra xırda məsələlərinə həsr edilmişdir. XII-XIII əsr Azərbaycan feodal dövlətlərinin hərbi təşkilatı mövzusu aktual olmaqla yanaşı, nəzəri və praktiki əhəmiyyətə malikdir. MəqalədəAtabəylər,Şirvanşahlar və Elxanilər dövlətlərinin hərb quruculuğunda oxşar və fərqli xüsusiyyətləri müqayisəli şəkildə təhlil edilmişdir.*

**Açar sözlər:** feodal dövlətləri, hərbi təşkilat, hərbi sistem, silahlı qüvvələr, hərbi rütbə, hərbi canişin.

**Ключевые слова:** феодальные государства, военная организация, военная система, вооруженные силы, воинское звание, военный наместник.

**Key words:** feudal states, military organization, military system, armed forces, military rank, military successor.

Atabəylər, Şirvanşahlar və Elxanilər dövlətlərinin siyası, sosial-iqtisadi vəziyyəti, dövlət quruculuğu tarixi hərtərəfli şəkildə öyrənilməsinə baxmayaraq, bu dövlətlərdə hərb işinin təşkili məsələləri tarixşünaslığımızda az tədqiq olunmuşdur. Bu sahədə aparılan tədqiqatlar sistemli şəkildə deyil, hərb işinin təşkilinin ayrı-ayrı məsələlərinə həsr olunmuşdur. Belə ki, göstərilən feodal dövlətlərinin hərbi təşkilatlarının tarixi hərb işinin öyrənilməsi üçün bir təcrübədir.

XII əsirdə feodal istehsal üsulunun inkişafı nəticəsində silahlı qüvvələrin xarakterində və dövlətlərin hərbi təşkilatında bir sıra dəyişikliklər baş vermişdir. Hərb işi tamamilə feodalların və onların süvari dəstələrinin müstəsna hüququna çevrilmişdi, bu da orta əsirlər üçün səciyyəvi hal idi. XII-XIII əsrlərdə süvari qoşun bütün Azərbaycan feodal dövlətlərinin, xüsusilə Elxanilərin əsas qoşun növü idi.

Atabəylər dövlətinin hərbi təşkilatı, onun strukturu xırda fərqləri nəzərə almasaq Səlcuqlar dövlətinin hərbi təşkilatı ilə oxşar di. XII əsrin 80-90-cı illərində daxili çəkişmələr nəticəsində Atabəylər dövləti ciddi problemlərlə üzləşmişdir. Ölkənin siyasi baxımdan parçalanması silahlı qüvvələrin parçalanması ilə müşahidə olunurdu, feodalların çoxsaylı toqquşmaları ağır silahlanmış süvari dəstələrin rolunu artırdı. Şirvanşahlar dövlətinin hərbi təşkilatı da Atabəylər dövlətinin hərbi quruluşuna bənzəyirdi. Lakin Elxanilər dövlətinin hərbi təşkilatı Atabəylər və Şirvanşahlar dövlətlərinin hərbi təşkilatından bir çox xüsusiyyətlərinə görə fərqlənirdi.

Atabəy Şəmsəddin Eldəniz öz dövlətinin nə inzibati, nə də hərbi qurluşunda demək olar ki, heç bir dəyişiklik etmədi[1]. Dövlətin inzibati-hərbi sistemi Iraq Səlcuq sultanlığının idarəetmə sistemi əsasında qurulmuşdu. Bu dövürdə Səlcuq hökümdarları sultanlıq taxtı uğrunda gedən daxili mübarizədə öz mövqelərini möhkəmləndirmək üçün hərbi iqta sistemini yaradaraq, onları özlərinə sədaqətli hərbi rəislər arasında bölüşdürdülər. Nəticədə, sultanlığın bütün əyalət və vilayətləri on minlərlə qoşun saxlayan hərbi başçılar, əmirlər arasında bölünmüş oldu. Tezliklə Şəmsəddin Eldəniz Arran əmirlərini özünə tabe etdi və

sultan Məsudun ölümü ərəfəsində demək olar ki, Arranın müstəqil hakimi olaraq, 50 minlik qoşuna malik idi[2].

Eldənizlər dövlətinin silahlı qüvvələri hökümdarın şəxsi qvardiyası və əsgəri qoşundan ibarət idi. Ali Baş komandan vəzifələrini atabəy, yəni dövlət başçısı icra edirdi. Ümumi orduya rəhbərlik edərək, o, müharibənin əsas məqsədlərini, məkan və zaman çərçivələrini müəyyən edir, dövlətin bütün idarələrinin işini əlaqələndirərək onların fəaliyyətini uzlaşdırırdı. Göstərilən vəzifələrin icrasında o, bir sıra dövlət məmurlarına arxalanırdı: xacib əl-xass, sahibi-xəbər, kadi-əl-əsgər, əmir-candar, əmir-axur, əmir-aləm, əmir-siphəsalar, ərizi ləşkər[1]. Xacib əl-xass hökümdarın qvardiya qüvvələrinə başçılıq edirdi. Eldənizlərin qvardiya hissələri məmlüklərdən ibarət idi. Əsasən hərbi əsirlərdən seçilərək toplanmış məmlüklər xüsusi hərbi təlim keçir, dövlət hesabına silahlandırılırlar. Qvardiya silahlı qüvvələrin ən etibarlı hissəsi sayılır və həmişə hökümdarı müşayət edirdi. Döyüş zamanı qvardiya ehtiyatda saxlanılır və ya ən təhlükəli mövqeni qoruyurdu. Fövqalədə vəziyyətlər zamanı xalq yığma qoşununa ehtiyac duyulduqda məmlüklərin bir hissəsi bu qoşunun zabitləri təyin edilir, bu da onların yüksək hərbi hazırlığından xəbər verir. Hökümdara sadiq olan yerli əhali (o cümlədən, feodallarla) heç bir əlaqəsi olmayan məmlüklər hökümdarın əmri ilə qan qisası alır, onun qohumlarını öldürür, itayət etməyən feodallarla mübarizədə hökümdarın yeganə etibarlı qüvvəsi idilər. İri torpaq mülkiyyəti olmayan və maddi baxımdan hökümdardan asılı olan məmlüklər onun arxası və siyasətinin zərbə alətləri idilər. Senyor-vassal tipli hərbi təşkilat dövlətin bütün ərazisində hərbi silkə mənsub olan şəxslərin yerləşdirilməsinə arxalanır və çox ağır təbiətli olaraq xırda, təcili, xəlvəti əməliyyatlar keçirməyə imkan vermirdi. Məhz belə hallarda döyüşə həmişə hazır vəziyyətdə olan və xırda əməliyyatlar aparmaq üçün kifayət qədər tərkibi olan qvardiyadan istifadə edilirdi. Bir sıra imtiyazlara malik olan qvardiya sülh dövründə müharibə dövründə olduğu kimi təmin və təhciz edilirdi. Eldənizlər dövlətinin məmlüklər qvardiyası iki hissəyə bölünürdü: əl-xasikaya; xaras əl-xass[1].Qvardiya tərkibinə götürülmüş məmlük əl-xass tərkibinə daxil edilirdi. Şəxsi məmlüklər ali əmirlər qədər məvacib alır və əl-xasikiya məmlüklərinə nisbətən daha bahalı paltar, silah və ləvazimatla seçilirdi.

Sahibi-xəbər hərbi kəşfiyyat məsələləri ilə məşğul olurdu. Öz işində, o tacirlərin, karvanbaşıların, poçt xidmətinin xidmətindən istifadə etsədə, casus və caqdaullara arxalanırdı. Kadi əl-əsgər silahlı qüvvələrin hərbi-hüquqi məsələləri ilə məşğul olur, şəriət və adət qaydalarına arxalanırdı. Onun tabeliyində qoşun kadiləri var idi. Əmri-candar qoşunun keşikçi və cəlladları olan candarlar dəstəsinə başçılıq edirdi. Hərbi əks kəşfiyyat və hərbi polis vəzifələrinin genişliyi göstərir ki, dövlət əleyhinə olan cinayətlər üzrə təhqiqatları kadi əl-əsgərə deyil, əmir-candara tapşırırdı. Hərbi əks-kəşfiyyatın, hərbi polisin və qoşun üzrə məhkəmə icrasının birləşdirilməsi informasiya itkisinin qarşısını almaq məqsədilə edilmişdir.

Əmir axur silahlı qüvvələrin  minik və qoşqu heyvanları, nəqliyyat vasitələri ilə təcizatına cavabdeh idi. Əmir-şikar dövlət ovunun başçısı sayılır və ov əmirlərinin köməyi vasitəsi ilə ov mərasimlərini təşkil edir. Ov qoşunun ərzaqla təminatında və iri qoşun hissələrinin təlimində olduqca böyük rol oynayırdı. Təcrübəli və qorxmaz əmirlər sırasından seçilib təyin edilən əmir-aləm öz dəstəsi ilə birlikdə dövlətin əsas simvolu olan hökümdarın (dövlətin) bayrağının qorunmasına cavabdeh idi. Əsgəri qoşunun başında duran əmir-sipəhsalar (ərəb.-əmir; fars.-sipəh "döyüşçü"), salar ("min") vilayət qoşunları, istehkam qarnizonları, mühəndis, artilleiya dəstələri tabe idi. Şəmsəddin Eldənizin  vaxtında onun oğlu Müzəffərəddin Qızıl Arslan Osman əmir-sipəhsalar olmuşdu[1].

Əskəri qoşunun əsasını vilayətlər tərəfindən göndərilən feodal yığma qoşunu təşkil edirdi. Dövlətin hərbi mexanizmi demək olar ki, tamamilə feodallardan asılı idi. Feodal hərbi təşkilatının əsasını hökümdar tərəfindən öz vassalına şərti olaraq istifadəyə verdiyi torpaq payı təşkil edirdi. Verilmiş torpağa görə vassal hərbi xidmət göstərməli idi. İlk baxışdan bu cür hərbi təşkilat hökümdar üçün şərəfli idi: ağabəylər mülazimlərdən ibarət qoşun gətirir və

bütün xərcləri öz üzərinə götürməklə dövlətin maliyyə sistemini artıq xərclərdən azad edirdi. Hökümdar minimal xərclərlə həm döyüşçülər, həm də zabit heyəti əldə etmiş olurdu. Lakin bu cür hərbi təşkilat öz bəhrəsini güclü hakimiyyət, nüfuzlu hökümdar olduqda verirdi. Hökümdar tərəfindən vilayət hakimi təyin edilmiş əmir təyinat yerini müvəqqəti iş yeri deyil, şəxsi iqta hesab edirdi. Bunun müsbət cəhəti vilayət maraqlarının əmirin maraqları ilə üst-üstə düşməsi və əmirin "öz" vilayətini canla-başla qorumasında idi. Eyni prinsip əsasında əmir ilə onun tabeliyində olan mülazimlər arasında münasibətlər qurulurdu.

Nəticədə pilləkənə bənzər feodal sistemi yaranırdı ki, bu sistemin hər pilləsində duranlar onlara tabe olan güclü hərbi qüvvənin mövcudluğunda maraqlı idilər. Nəticədə ümumdövlət qoşunu "üst pillə" olan vilayət hakimlərinin gətirdikləri qoşun hissələrindən ibarət olurdu. Bir sıra hərbi məsələlərlə "divan əl-cayş" adlanan hərbi divan məşğul olurdu. Arizi-i ləşkər tərəfindən idarə olunan bu divan "hərbi torpaqların" (feodallara verilmiş iqta paylarının) paylanması, qoşunların məvacib və maaşinin verilməsi, qoşunların və silahların say tərkibinin və dislokasiyasının qeydə alınması ilə məşğul olurdu. [1].

Divan əl-cayşın tərkibinə hərbi xatiblər və ləşkərnevislər daxil idi. Yüksək rütbəli zabitlərin köməkçi qruplarına xüsusi tapşırıqlar üzrə (xacib, çavuş, tərxan, pəhləvan, camakdar) daxil idi[1]. Xacib öz əmirinin saray və hərəmini qoruyur, sarayda baş verənlər haqqında öz əmirinə xəbər verirdi. Minbaşıdan böyük, subaşıdan kiçik rütbə sayılan xaciblər təkcə hökümdar və ən yüksək rütbəli şəxslər tərəfindən saxlanılırdı. Digər rütbə sahiblərinin yanında köməkçi vəzifələrini tərxan icra edirdi. Mənbələrdə çavuş rütbəsinə daha çox rast gəlinir. XIII əsrin əvvəllərində çavuş rabitə üzrə zabit sayılaraq yürüşə başlamaq haqqında ağabəydən mülaziminə yazılmış məktubu çatdırır və bu işdə pəhləvan və camakdarlara arxalanırdı. Beləliklə, çavuş saxlamaq hüququ yüksək rütbəli feodallara məxsus idi. XII-XIII əsr hadisələrindən bəhs edən əlyazma bunu təstiqləyir: iki əmirin söhbəti zamanı otağa çavuş daxil olur və özünün sahibi, əmir Kaymazin saraya yaxınlaşması haqqında xəbər verir. Bunu görən əmirlərdən biri isteza ilə soruşur: "Yəni Kaymaz öz həyatında belə böyük rütbəyə sahib olub ki, şəxsi çavuşlar saxlayır?"[2]

Vilayət başçısı olan sipəhsalara minlik əmirləri tabe idilər. Demək olar ki, minlik Eldənizlər qoşunun əsas hərbi-inzibati bölməsi idi. Öz növbəsində, minlik əmrinə yüzlük əmirləri, onlara isə yarım yüzlük əmirləri tabe idi. Pəncəbaşı baş onluq əmirinə başçılıq edirdi. Eldənizlər dövlətində piyadalar səhra döyüşlərində köməkçi vəzifələri icra edirdi, istehkamların müdafiə və mühasirəsində ön plana çıxırdılar. Hərbi inzibati baxımdan piyadalar visakların (ərəb."çadır") və şəhərlərin göndərdiyi dəstələrin tərkibində olurdular. Hərbi-taktika baxımdan onlar silahlanmaya və icra etdikləri vəzifələrə görə dəstələrə bölünürdülər: tirkəşbəndilər (fars."oxçular") çarxçılar, sapançılar, nizəçilər, qılıncdaşıyanlar və nizəçilər əsləhə ilə qorunduqlarından ağır silahlanmış, digərləri isə yüngül silahlanmış piyadalar sayılırdılar[1].. Demək olar ki, şəhər əhlinin hərbi təşkilatı əl-camaat adlanırdı. Mühəndis hissələri istehkamçı-lağımçı və yol istehkamçı inşaatçılarından ibarət idi. Onluq prinsipi əsasında dəstələrə bölünmüş bu hissələrin başçıları, ehtimal ki, dövlət xidmətində daim işləyir, siravilər isə sadə xalq içərisindən yığılırdı. Topçu hissələri, çərxçilər, mancaqçılar və neftatanlardan ibarət idi. Atıcı topçu dəstələri usta daşatan və başçılarından ibarət idi. Xidmətçi heyyət dinc dövürlərdə yox idi, çünki atıcı qurğular uzun müddətli saxlanma zamanı öz döyüş qabiliyyətini itirir və onları müharibəyə az qalmış dövürdə quraşdırmaq lazım idi. Ona görə də anbarlarda qurğuların hissələrinin və mərmi ehtiyatının olması kifayət idi.

Azərbaycanın orta əsir dövlətlərində mövcud olan qoşunlarının say tərkibini göstərmək indiyədək bu dövlətlərdə ümumi əhali sayı haqqında məlumatlar az olduğundan məsələ çətinləşir. Atabəylər dövlətinin çiçəklənmə dövründə 20-25 minlik bir qoşuna malik idi[3]. Göstərilən rəqəm Atabəylər qoşunun XII əsrin ikinci yarısına şamil edilə bilər, lakin sonrakı dövürlərdə, xüsusən Atabəy Özbəyin hakimiyyəti illərində (1210-1225) dövlətin və

qoşunların zəifləməsi baş verir. Bunu Sabutay və Cəbənin komandanlığı altında monqollqarın yürüşü də təsdiqləyir. 30 minlik güclü monqol qoşunu Xəzəri əhatələmiş, 4 iri miqyaslı döyüş, təxminə 20 mühasirə etmişdir. Bu da 30 min döyüşçünün orta əsirlər dövrü üçün çox iri əsgəri qüvvə olduğunu göstərir[3].

Şirvanşahların hərbi əyanları, yerlərdə bütün hərbi və inzibati hakimiyyəti əllərində toplamış hərbi rəislər-əmirlər idi. Əmirlər Şirvanın vilayət, şəhər və kəndlərində hakimlik edir, müdafiə istehkamlarının tikilməsi işlərinə baxırdılar[1]. XI əsrin sonu-XII əsrin əvvəllərində Arranda xidmət edən qoşun başçıları arasında sipəhsalar Əbü-l-üla Cənzəvinin adı çəkilir. XII əsrin əvvəllərində qoşun rəisinə, sərkərdəyə sahib əl-cəyş də deyilirdi. Bu dövürdə Şamaxıda əmir-sipəhsalar Mübariz əd- Din olmuşdur. Sipəhsalar-hərbi rəis, baş sərkərdə rütbəsi XIII əsrin əvvəllərində də ən yüksək hərbi rütbə idi[2].

Şirvanşah və əmirlərin yanında onların şəxsi mühafizi vəzifəsini daşıyan qulamlar olurdu. Onlar şirvanşahın tapşırığı ilə onun qohumlarını öldürüb, qan intiqamını alır və digər qorxulu tapşırıqları yerinə yetirirdilər. “Tarix əl- Babda” xidmətçilər arasında qulamlardan başqa görünür, daha yüksək mövqe tutan “xadim”lərin də adı çəkilir. Şirvanşahlar dövlətində nızami qoşunlardan (əsgər, cünd), növbətçi dəstələrdən başqa türk və türkmənlərdən təşkil olunan muzdlu dəstələr də var idi[1]. Şəhərlərdə əhalini şəhəri yadelli işğalçılardan müdafiə etməkdə birliyə çağıran sakinlərdən ibarət hərbi təşkilat da var idi. Şəhər icması “əl-cəməət” adlanırdı. XIII əsrdə Bayıl buxtasındakı qala divarlarının daşlarında “cəməəti-i şəhr-i Şəmaxi” sözləri qeyd olunur. Ehtimal ki, burada Şamaxi şəhər icmasından söhbət gedir[2]. Qoşunların qeydiyatı və onların məvacibinin ödənilməsi ilə məşğul olan məmur arid adlanırdı[3].

Şəhnə XI-XII əsrlərdə sultanın hərbi canişini idi. Məsud ibn Namdar Gəncə divanın hərbi canişini kimi göndərdiyi Əbdəl-Cabbarın Beyləqanın müstəqilliyinin tamamilə ləğv edilməsi demək olan hərbi dəstələrlə buraya gəldiyini xəbər verir[4]. Çingiz xanın dövründə olduğu kimi Elxanilər də orduya çox əhəmiyyət vermişdilər. Monqol ordusu onluq sistem əsasında təşkil olunurdu. Ən kiçik hərbi birlik on əsgərdən ibarət olan (arban) və başında bir komandan olan birlik idi. Bundan sonra min (minqqan) əsgərdən ibarət olan hərbi birlik gəlirdi. On min nəfərdən təşkil olunmuş hərbi birliyə Tümən (farsca Tuman) deyilirdi. Ən yüksək hərbi lider (nökər) hökümdarın ətrafında baş komandan üçün əsgərlərdən ibarət olan bu tabelər ordusu bir ulus meydana gətirir və eyni mənada hökümdarın (baş komandanın) malı sayılırdı. Dolayısıyla da ordu oğullara və başqalarına miras olaraq verilə bilərdi[1].

Tükmenlərin başında öz hərbi qabiliyyətinə görə fərqlənmiş monqollqr, qədim qəbilə liderləri və ya onların xələfləri dururdular. Elxani ordusu hərbi ehtiyaclara görə çoxlu sayda tümənlərdən ibarət olurdu. Çin örnəyinə görə ordu sağ (Bra onqar), sol (Dsah onqar) və orta (kul)ya ayrılırdı. Hökümdarın yanında bir də baş komandan olurdu. Çingiz xanın vaxtında baş komandan Tuluy idi. Elxanilərdə isə şöhrət qazanmış komandanlar bu mövqeyə gətirilirdilər. Bunlara Bəylər bəyi (Biqlar Biqi) və ya Əmirül-ümera və ya Miri Miran deyilirdi[2].

Elxanilər ordusunda nizam-intizam çox sərt idi və əmrə itaət etməyənin cəzası edam idi. Hər komandan (Noyon) özündən rütbəcə böyüyün əmrini həmin dəqiqə yerinə yetirmək məcburiyyətində idi. Bu qatı nizam-intizam monqol ordularının qalibiyyətlərinin sirri idi. Baş komandan, hökümdarın oğulları və digər komandanlar etdikləri hərbi hərəkətlərin tam cavabdehi olurdular. Hər hansı bir məğlubiyyətdən sonra komandanlara müxtəlif (bəzən ölüm) cəzalar verilirdi. Elxani ordularının əksəriyyəti süvarilər (Morita çerik) təşkil edirdi. Piyada əsgərlər (yabuqan çerik) olaraq isə hərbi əsirlər istifadə olunurdu. Elxani dövlətində orduda bir xeyli kitay (çinli), cürcanlı və sonralar tacik deyə adlandırılan iranlılar istifadə olunurdular. Yardımçı qüvvələr olaraq ermənilər və gürcülərdən istifadə edilirdi[1].

Elxani ordusunun sayı haqqında qəti bir şey söyləmək çətindir. F.Rəşidəddin sülh dövürlərində yüz iyirmi doqquz min atlı (Hoşiqun, Kuşun) və müharibə vaxtlarında 1 milyon 400 min əsgərdən (çerik) bəhs edir. Monqol əsgərlərinin hər hansı bir gəliri yox idi. Sadəcə qənimətdən pay alırdılar. Hülaki isə Tümən komandanlarına 20 min dinar maaş kəsdi və bu

maaş sonralar 50 min dinara qədər qalxdı. Minbaşılar əvvəlcə min dinar alırdılar.Elxanilər dövlətinin qüvvətlənməsi və yeni ölkələrin işğalının dayandırılmasndan sonra (1260-cı il) bu növ maaş ödəmə kəsildi. Çünki Hülaki əldə edilən qənimətin ancaq beşdə ikisini alır, qalan qismi Böyük xana və xanədanın ən böyüyü olan Batıya, onun ölümündən sonra da Bərkəyə yollayırdı. Elxanilərə düşən pay isə az idi. Qazan xan bu vəziyyəti dəyişdi və Böyük xana pay yollamadı. Qazan xan əvvəlcə əsgərə maaş verdisə də, bu vəziyyət xəzinəni boşaldacağını görüncə bundan yan keçdi. Əvəzinə əsgərlərin olduqları qərargah yaxınlığında totpaq hissələri verməyə başladı. Qazan xan müxtəlif islahatlarla ordunun vəziyyətini düzəltməyə çalışdı, fəqət təsirli olmadı [1].

***Ədəbiyyat***

**1.**Z.Bünyadov “Azərbaycan Atabəylər dövləti” B.1988
2.İbn əl-Əsir “Əl-Kamil fi-t-tarix” B.1959
3.А.Юнусов “История военного дела в Азербайджана в IX- начале XII вв” Б.1986
4.ал-Халаби Мухаммед “Поход эмира Йалибека” Б. 1985
5.S.Aşurbəyli “Şirvanşahlar dövləti” B. 1997

## ИЗ ИСТОРИИ ОРГОНИЗАЦИИ ВОЕННОГО ДЕЛО В АЗЕРБАЙДЖСКИХ ФЕОДАЛЬНЫХ ГОСУДАРСТВАХ В XII-XIII ВЕКАХ

***Аллахвердиева Гюльтакин Афат кызы***

***Резюме***

Несмотря на всестороннее изучение политического и экономического положения феодальных государств, существовавших в Азербайджане в XII-XIII веках-Атабеков (Эльденизов), Ширваншахов и Эльханов (Хулагидов), истории военного дела и военного строительства, организации военных работ в этих странах мало изучена в нашей историографии.Исследования не проводились систематически, они в основном были сосредоточены на ряде второстепенных вопросов касающихся организации военной работы. Тема военной структуры феодальных государств Азербайджана в XII-XIII веках не только актуальна, но и имеет теоретическое и практическое значение. В статье проводится сравнительный анализ сходства и различия военной организации Атабеков, Ширваншахов и Эльханидов.

## FROM THE HISTORY OF THE ORGANIZATION OF MILITARY WORK IN THE FEUDAL STATES OF AZERBAIJAN IN XII-XII CENTURIES

***Allahverdieva Gultakin Afat gizi***

***Summary***

Despite a comprehensive study of the political and economic situation of the feudal states that existed in Azerbaijan in the XII-XIII centuries - the Atabeks (Eldenizov), Shirvanshahs and Elkhanov (Khulagids), the history of military affairs and military development, the organization of military work in these countries has been little studied in our historiography The studies were not carried out systematically, they were mainly focused on a number of secondary issues related to the organization of military work. The topic of the military structure of the feudal states of Azerbaijan in the XII-XIII centuries is not only relevant, but also has theoretical and practical significance. The article provides a comparative analysis of the similarities and differences in the military organization of the Atabeks, Shirvanshahs and Elkhanids.

***Rəyçi: dos. Veysəlova V.R.***
***Ümumi tarix kafedrasının 10 sentyabr 2021-ci il tarixli iclasın 01 saylı protokolu***
***Daxil olma tarixi 24 sentyabr 2021-ci il***